**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

---

***AZSAYLI XALQLARIN FOLKLORU***

**SƏDAQƏT KƏRİMOVA**

# MƏNİM ŞAİR XALQIM

**BAKI - 2017**

**Layihənin rəhbəri:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA-nın həqiqi üzvü

**Redaktor:** **Hacı QAŞAROV**
Dağıstan Dövlət Universitetinin professoru

*Azsaylı xalqların folkloru*
**S.Kərimova.**
**Mənim şair xalqım,** Bakı, Elm və təhsil, 2017, - 400 səh.

Tanınmış qələm sahibi Sədaqət Kərimovanın «Mənim şair xalqım» kitabına onun uzun illər Azərbaycanın, Dağıstanın və Türkiyənin ləzgi kəndlərindən topladığı bayatılar daxil edilib. Ləzgi folklorşünaslığına töhfə olan bu kitab geniş oxucu kütləsi, orta məktəb şagirdləri, ali məktəb tələbələri, eləcə də bu sahədə çalışan peşəkarlar üçün nəzərdə tutulmuşdur.

folklor.az

K 4603000000 Qrifli nəşr
N-098-2017

© Folklor İnstitutu

**SƏDAQƏT KƏRİMOVA**

# MƏNİM ŞAİR XALQIM

**BAKI - 2017**

## REDAKTORDAN

İstedadlı şair, nasir, tərcüməçi, bəstəkar Sədaqət xanım Kərimova növbəti dəfə oxucularla görüşə "Mənim şair xalqım" adlı kitabı ilə gəlib. Əsərlərini üç dildə (ləzgi, azərbaycan və rus dillərində) yazıb-yaradan S.Kərimova bu dəyərli kitabını ləzgi xalqının şifahi xalq ədəbiyyatı nümunələrindən olan bayatılara həsr edib.

Müəllifin Qafqazın azsaylı xalqlarının şifahi xalq ədəbiyyatının zənginləşməsi və tədqiqi sahəsində həyata keçirdiyi bu möhtəşəm fəaliyyəti, təbii ki, doğma xalqının qədim mədəniyyətinə və ədəbiyyatına duyduğu böyük məhəbbətdən yaranıb. Şifahi xalq ədəbiyyatının lirik növünün ən geniş yayılmış janrı olan ləzgi xalq bayatıları nəğmə və mahnılardan fərqli olaraq, sabit forma - janr xüsusiyyətlərinə malikdir. Öz xalqının ruhunu və xarakterik cizgilərini özündə ehtiva edən folklor nümunələri olan bu bayatıların müəllifləri, şairlik istedadına malik olan, dünyaya filosof gözü ilə baxmağı bacaran, ana dilini sevən, doğma yurdunun təəssübünü çəkən, təbiətə vurğun olan müdrik insanlardır.

Müəllif həm keçmişdə, həm də müasir dövrdə bayatı yaradıcılığı ilə məşğul olmuş bir sıra el sənətkarlarının portretlərini böyük məhəbbətlə yaradıb, onların hər birinin bu janra gətirdikləri yenilikləri ayrıca qeyd edib. S.Kərimova kitabında bu dəyərli poeziya nümunələrinin poetik xüsusiyyətlərindən, orada öz əksini tapan fəlsəfi yükün dərinliyindən, sadə xalq dilində deyilən, mürəkkəb fikirləri və görüşləri əhatə edən hadisələrin zənginliyindən geniş şəkildə söhbət açır.

Müəllif bayatıları toplayıb sistemləşdirərkən, xalqının

mənəvi sərvətini üzə çıxararkən böyük zəhmət çəkib. Adətən belə geniş miqyaqslı yaradıcılıq işləri böyük kollektivlər tərəfi ndən həyata keçirilir. Xalqının vurğunu olan, zərif cüssəli, lakin güclü iradəyə malik olan Sədaqət Kərimova qarış-qarış gəzərək bu qəbildən olan materialları toplamış, onları sistemləşdirərək səhmana salmış, uzun zaman tələb edən tədqiqat və yaradıcılıq prosesi nəticəsində bu kitabı ərsəyə gətirmişdir.

S.Kərimova xalqın mənəvi xəzinəsini toplayarkən bir neçə il Azərbaycan Respublikasının qədim xalqlarından olan ləzgilərin yaşadıqları şəhər və kəndlərdən, həmçinin Türkiyə Cümhuriyyətində yaşayan ləzgi diasporundan topladığı folklor mətnlərini də kitaba daxil etmişdir. Bütün bunlar müəllifin ana dilinə, doğma mədəniyyətə, qədim adətlərə böyük məhəbbətini bir daha sübut edir.

Kitab üç hissədən ibarətdir. Birinci hissədə müəllif ləzgi folklorunun xüsusiyyətlərindən, onların yarandığı dovrlərdən və inkişaf mərhələlərindən söhbət açır. İkinci hissədə 50-dən artıq bayatı ustadı haqqında məlumatlar verilir, onların portretləri təqdim olunur. “Bayatılar” adlanan üçüncü hissədə müxtəlif mövzulara aid, olduqca gözəl və mənalı ləzgi bayatıları verilib.

İnanırıq ki, xalq ruhundan qidalanan, onun zənginliklərini və gözəlliklərini əks etdirən bu kitab oxucuların ürəyincə olacaq.

**Hacı QAŞAROV,**
**Dağıstan Dövlət Universitetinin Dağıstan xalqları ədəbiyyatı kafedrasının professoru**

# MÜƏLLİF SÖZÜ

Bu kitab xalq poeziyasına və onun zənginliyinə məhəbbətlən yaranıb. Ləzgi xalqının elə bir nümayəndəsi yoxdur ki, hələ uşaqlıqdan beynində həkk olunub, dilində əzbər olan bayatılar onun ömründə, xəyallarında və arzularında iz qoymamış olsun.

Ləzgi dilinin dadı, onun ana südü, ata evi qədər əzizliyi folklorun bir qolu olan bayatılarda qabarıq şəkildə üzə çıxır. Onların hisslərini titrətmədiyi, düşüncələrinə işıq salmadığı insan təsəvvür etmək çətindir. Səbəbi isə odur ki, bayatılar xalqın fikir və düşüncələrindən, sevinc və kədərindən, həyəcan və ağrılarından yaranan misralardır.

Ləzgilərin həyatı, məişəti, adət-ənənələri, mədəniyyəti, ləzgi analarının laylası, ləzgi ağsaqqallarının hikməti, sevənlərin iztirabları, qürbət ellərə gedənlərin vətən həsrəti – bütün bunlar ləzgi mahnılarının canına, qanına hopub. Xalqın ruhunun inikası olan bu bayatılarda əsl xalq dili yaşayır. Onlardan tariximizin ayrı-ayrı dövrlərinin ab-havasını duymaq olur. Onlar yad sözləri, ögey fikirləri, yaraşmayan rəngləri özünə yaxın qoymayıb. Bu mahnılarda ləzgi dilinin gözəlliyi insanı heyran edir. Burda müxtəlif insanların taleyi, görüşlər və ayrılıqlar, kədər və sevinclər var. Xalq ruhunun ucalığı, insan hisslərinin doğmalığı və yaxınlığı, arzu və xəyalların genişliyi, sevgilərin bənzərsizliyi var. Sadə dildə və anlaşıqlı üslubda yaradıldığından asanlıqla da yadda qalır.

Ləzgi mahnıları öz mənbəyini dağlardan alan, sonra coşqun çaylara çevrilən şəlalələrə bənzəyir. Onlardan bəziləri tez yaddan çıxıb unudulsa da, xalq hikməti ilə yoğrulan, daha dərin məna kəsb edən nümunələri dildən-dilə düşərək

toylarda, məclislərdə oxunur, yüz illər boyu yaşayır. Xalqın yaratdığı bayatılara müxtəlif mövzularla bağlı – məişət, məhəbbət, zəhmət, vətən məhəbbəti, qürbət dərdi qarışmış, tarixi hadisələrlə əlaqədar yaranmış mahnılar aiddir.

Qədim dövrlərdə meydana gəlmiş zəhmət mahnıları görülən işi asanlaşdırmaq, vaxtı maraqlı keçirmək, xoş əhval-ruhiyyə yaratmaq, ürək açmaq məqsədilə insanlar tərəfindən yaradılmışdır. Ləzgi kəndlərində təbiət hadisələri ilə bağlı mahnılar arasında "Peşapay", "Quni" (yağış yağdırmaq üçün), "Alapex" (gün çıxması üçün) kimi mərasimlərdə ifa olunan mahnılar geniş yayılmışdır. Kənd təsərrüfatı işləri ilə əlaqədar (əkin, səpin, biçin, alaq işləri) yaranmış "İlk şırım", "İlk sünbül" kimi zəhmət bayramlarında, o cümlədən ləzgilərin qədim xalq iməciliyi olan mel məclisində ifa olunan mahnılar insanları şənliyə və birliyə səsləyirdi.

Bakıda neft mədənlərində çalışan gənc fəhlələrə həsr olunan mahnılarda ayrılığın acı dadı, çətin həyat şəraiti ilə bağlı yaranan narahatlıq, insanların ağır zəhməti aydın görünür. Tarixlə bağlı mahnılar əsrlər boyu xalqın azadlığı uğrunda apardığı mübarizəni, igidlərin qəhrəmanlıqlarını yada salır.

XIV əsrin əvvəllərində Dağıstana monqol-tatarların hücumları, həmin əsrin sonlarında Toxtamışın və Teymurləngin qoşunlarının törətdikləri vəhşiliklər, XVIII əsrdə Nadir şahın xalqımızın başına gətirdiyi müsibətlər bayatılarımızda aydın əks olunub. Onlar bizi xalqımızın qəhrəmanlıq tarixinin ayrı-ayrı səhifələri ilə tanış edir.

Lirik mahnılarda kasıb qızla oğlanın, uzaqlara işləməyə gedən cavanla, evdə tək qalan qadının təmiz, ülvi hissləri, onların sabaha olan ümidləri, bir sözlə, ləzgi gənclərinin daxili aləmləri əks olunur. Ləzgi bayatılarının böyük hissəsi

sevgi, məhəbbət haqqındadır. Onlarda sevənlərin coşqun duyğuları, ilk görüşün şirinliyi, məhəbbətin əzabları, ayrılığın dözülməzliyi kimi ülvi hisslər tərənnüm edilir. Toy gününü səbrsizliklə gözləyən sevgililərin sevinci ilə yanaşı, onları bir-birindən ayırmağa cəhd göstərən insanların bəd niyyətləri, yaşadıqları dövrün ab-havası da aydın görünür.

Mövzusu kənd həyatının reallıqları olan bayatı nümunələrində daha çox əkin əkən, yer şumlayan, ot biçən, qoyun bəsləyən, yol çəkən, körpü tikən, ev ucaldan insanların saysız-hesabsız qayğılarından bəhs edilir. Şəhərdə çalışan kişilər isə adətən doğma diyarı, sevgili yarı üçün darıxanda bayatı qoşardılar. Həyat dolu bu bayatılarda ləzgi həyatının bütün tərəfləri var: külək gəzişən beşeyvanlar, qocaların cərgə vurub oturduqları kim, el adətlərindən qaynaqlanan könüllü iməcilik - mel, "Pərizada"ların şirin səsləri ilə dolu toylar, sevənlərin evi olan məhəllə, qızların səhənglə su daşıdıqları bulaq, istəkliləri qovuşduran yaşıl bağ, onları ayırmağa cəhd göstərən çengi (gəzəyən). Bu bayatılar sayəsində təbiətin əsrarəngiz gözəllikləri, həmçinin dövrün çətinliklərinə baxmayaraq, xalqın mənəvi zənginlikləri dünya nemətlərindən üstün tutmaq bacarığı parlaq şəkildə üzə çıxır. Çobanların, rəncbərlərin qayğıları, evdə övladlarına layla çalan, xalça toxuyan, müxtəlif məişət işləri görən qadınların dünyagörüşləri bu bayatılardan bizə aydın görünür.

İnsanların fikir və düçüncələrini öyrənməyə imkan verən, bizi heyran edən böyük xəzinədir bayatılar. Görəsən xalqımız onları hansı dövrdə, hansı əsrdə yaratmağa başlayıb? Dillə deməyə çətinlik çəkdiyimiz dərin hissləri dörd misrada bu qədər dəqiq və gözəl demək məharəti onlarda haradandır? Ruhumuzu titrədən, ürəyimizdən tikan çıxaran yaxın və doğma hisslər, böyük mətləblər var bu dörd misralıq şeirlərdə.

Bir ömrün hekayətini, bir məhəbbətin böyük tarixini, bir çarəsiz ayrılığın bitməyən ağırlığını dörd misrada qabartmaq böyük istedad tələb edir. Elə buna görə də Dağıstanın xalq şairi Rəsul Həmzətov yazırdı: "Dağlıların mahnıları rənglərlə deyil, göz yaşları ilə, ürəyin qanı ilə yazılıb. Xalq mahnıları həm ilk eşitdiyimiz layladır, həm sonda eşidəcəyimiz ağı. Xalq mahnılarında aşıq olanlar qovrulub- yanır, igidlər həlak olur, düşmənlər lənətlənir, döyüşlər gedir, zəhmət çəkilir, kasıblar dövlətlilərə qulluq edir, dul qadınlar yas saxlayır."

Yüz illərdir ləzgilər bayatıların sehrindədir. Onların yaratdıqları ən mənalı, ən dəyərli nümunələri zaman ələkdən keçirərək bizə çatdırıb. Belə bayatılar dünyanın ləzgilər yaşayan bütün güşələrinə yayılıb. Yüzlərlə bayatıların Azərbaycanın, Dağıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkiyənin və başqa ölkələrin ləzgiləri tərəfi ndən eyni ustalıqla yaradılması və dildən-dilə keçərək yaşaması bunu bir daha sübut edir. Bu bayatılarda insanları yaxınlaşdırmaq, doğmalaşdırmaq gücü olduğundan dünyanın harasında yaşamasından asılı olmayaraq, bütün ləzgilər bu xaql poeziyası nümunələrini eyni cür qoruyub saxlayırlar. Görəsən niyə folklorçu alimlər bayatılar üzərində belə dərin tədqiqatlar aparırlar? Bəs xarici lingvistlər niyə bayatılar toplamaq üçün tez-tez ləzgi ailələrinə baş çəkirlər? Səbəb dildir. Korlanmamış, təmiz, saf dil var bayatılarda. Bəşəriyyətin bu zəngin xəzinəsini qoruyub saxlamaq üçün bu gün dünyanın lingvistləri ayağa qalxıblar. Onlar el şairlərinin sevə-sevə, yana-yana yaratdıqları bəndlərə zər qədri bilən zərgər kimi yanaşırlar.

Bir romanlıq mövzunu dörd misraya köçürmək istedadı var bayatı yaradıcılarında. Onlar fi kirlərini elə səlis qaydada, elə gözəl qafi yələrlə, elə dərin məzmunda bildirirlər ki, sanki bunlar ustad sənətkarlar tərəfi ndən qələmə alınıb. Ləzgi

folklorunun bu cavahirlərini toplamaq, onları xalqa qaytarmaq üçün şairlər, yazıçılar, alimlər əllərindən gələni edirlər. Bu iş bu gün də davam edir. Çünkəilinə qələm alan hər bir insanın həyatdakı ilk müəllimi xalq poeziyasıdır.

Bu kitabın müəllifi də özündən əvvəlki qələm sahiblərinin yolunu davam etdirir. Folklorun bu qolunun xüsusiyyətlərindən danışanda, onu meydana gətirən dövrlərdən, bayatılarda qaldırılan məsələlərdən bəhs edəndə o, bu dörd misraları yaradan el şairlərinin irsini həssaslıqla nəzərdən keçirir. Hər bir bayatının arxasında ayrıca müəllifi n dayandığını, onun konkret bir şəxs tərəfi ndən qələmə alındığını düşünən müəllif bu cür insanların izi ilə 60-dan çox ləzgi kəndini gəzib-dolaşıb. O, Azərbaycanın Qusar, Quba, Xaçmaz, Qəbələ, Oğuz, İsmayıllı, ŞəkiA, ğdaş və başqa rayonlarının müxtəlif kəndlərindən, o cümlədən Türkiyənin bəzi vilayətlərinin ləzgi kəndlərində məskunlaşmış həmvətənlərimizdən minlərlə mahnılar toplayaraq, onların içindən indiyə kimi çap olunmamış nümunələri üzə çıxarmağa çalışıb. Bəzi məşhur, dillərdə gəzən bayatıları isə forma müxtəlifl iyini nəzərə alaraq yenidən yada salıb.

Kitabdan göründüyü kimi, bayatı yaradıcılığı ilə məşğul olan el şairlərinə bütün dövrlərdə olduğu kimi, müasir dövrdə də təsadüf olunur. Qusar rayonuna gəldikdə isə, burada olduqca zəngin bayatı xəzinəsi var. Buranı folklor muzeyi adlandırmaq olar. Son iyirmi il ərzində xalq sənətkarlarının izi ilə Qusarı kəndbəkənd gəzən müəllif, redaktoru olduğu “Samur” qəzetində bu barədə neçə-neçə səhifələr verib. Yeri gəldikcə həmin bayatı ustaları haqqında məlumatlar çatdırıb. Yargunlu Seley, tahircallı Sədəf, Xanımağa, mucuğlu Gözəl, gədəzeyxürlü Bədirnisə, Susanxanım, imamqulukəndli Mədinə, əniğli Hafizə, zindanmuruqlu Meyram, qilahlı Ana, avaranlı Gülceyran,

Şahnigar və digərləri haqqında verilən məlumatlardan göründüyü kimi, Qusar forklorla zəngin məkandır. Burada müxtəlif dövrlərdə yaşamış neçə-neçə ustadın yaratdığı bayatılar indiyə kimi xalqın yaddaşında yaşayır. Rayonun bir sira kəndlərində isə bu sahədə ayrıca məktəblər fəaliyyət göstərib. Onlardan biri Gədəzeyxürə aiddir. Müəllif həmin məktəbdən, onu yaradan ustadlardan, eləcə də xalqın bu zəngin xəzinəsini qoruyub saxlayan insanlardan maraqlı məlumatlar verib. Bayatı məktəblərinə eləcə də Qusarın qədim kəndləri olan Yargun (Həzrə), Tahircal, Zuxul, Cağar və başqaları da aiddir. Bu kəndlərdə adları dillərdə gəzən onlarca sənətkarlar yaşayıb. Onlar bu gün də adlarını aşkar etmədən əsl gövhərlər yaradırlar.

Ötən dövrlərdə Qusar rayonunun bir sira kəndlərində yarışma şəklində, bir neçə nəfər tərəfindən ifa olunan "havazi[1]" adlı folklor nümunələri geniş yayılmışdı. Onlara Gədəzeyxür, Bədişqala, Cibir və başqa kəndlərdə tez-tez təsadüf olunurdu. Son vaxtlar havazi yaradanların sayı əhəmiyyətli dərəcədə azalsa da, insanlar tez-tez həmin məclisləri yada salırlar. Bayatı məclisi sayılan, üz-üzə dayanıb şeirləşmə havazi adlanır. Ləzgilərin bu adətə necə bağlı olduğu xalq bayatılarından da aydın görünür. Əsasən zəhmətlə bağlı xalq iməclikləri ilə əlaqədar yarandığından havazilər çöllərdə, bağlarda, zəmilərdə, xırmanlarda oxunardı. Adətən uca səsi olan bir qadın onu başlayar, ardını digərləri davam etdirərdi. Havazilər avazla, musiqi ilə oxunan bayatılar olduğuna görə onları ifa edənlərin məlahətli səsə malik olması vacib şərt sayılırdı. Əslində belə yarışmalar istedadlı adamları üzə çıxarmağa şərair yaradırdı, çünki məclis hamının gözü qarşısında baş tutar, alqışlarla müşayiət olunar, çoşqulu şəkildə davam edərdi.

------------------------

1 havazi – xorla oxunan mahnı

Kitaba daxil edilmiş bayatıların böyük əksəriyyəti məhəbbət mövzüsuna həsr olunub. Burada elə dərin hisslərdən, elə doğma duyğulardan söhbət gedir ki, bu bayatıları oxuyan hər kəs onları özününkü sayır.

Bayatılarımızda xalqın ruhunun zənginliyi adamı heyran edir. Bu dörd misralar əsl əxlaq, tərbiyə, hikmək məktəbidir. Onlara bulaq suyunun təmizliyi, baharda açılan novruzgüllərinin ləçəklərinə qonan şehin zərifliyini xatırladan hisslər qarışıb. Elə buna görə də bayatılar tərbiyə etmək gücünə malikdir.

Əksər xalqların, o cümlədən Azərbaycan xalqının bayatılarında olduğu kimi, ləzgi bayatılarında da əsas fikir üçüncü və dördüncü misralarda ifadə olunur. Lakin ləzgi bayatılarını təkrarsız edən, onlara dad verən eləcə də, birinci və ikinci misralardır. Bunlar gəlişi gözəl sözlər olmayıb, digər misraların gücünü artıran xalis tikinti materialıdır. Onların deyim tərzi elə gözəl, elə təbii, elə ürəyəyatan və səmimidir ki, asanlıqla yadda qalır. Biz də bu kitabı tərtib edəndə bayatıları məhz həmin deyim qaydasına və formasına görə bölmələrə ayırmışıq. Bu, kitabdan istifadəni xeyli asanlaşdıracaq.

Xalqımızın mənəvi xəzinəsi olan, ləzgi dilinin zənginliyini və qədimliyini özündə yaşadan bayatıları qoruyub saxlayan ağsaqqallarımız və ağbirçəklərimiz var ikən bu böyük əmanət də yaşayacaq. Elə buna görə də bayatılarımızı dənizin dibindən mirvari yığan kimi toplamalıyıq. Çünki bu, xalqımızın ədəbiyyatı və mədəniyyətinin qorunması və gələcək nəsillərə çatdırılması baxımından çox mühüm bir vəzifə olub hamımızın müqəddəs borcudur.

Bayatılar azərbaycan dilinə kitabın müəllifi tərəfindən tərcümə olunmuşdur.

**S. KƏRİMOVA**

# BAYATILAR

## *Uca dağlar başında*

Uca dağlar başında,
Yenə qar, yenə sazaq.
Kaş şahinə dönəydim,
Yerin qəmindən uzaq.

***

Uca dağlar başından
Dağıstanı görəydim.
Bir insan balasıyla
Sirrlərimi böləydim.

***

Uca dağlar başında,
Qartaldırmı o gülən?
İstəkli yar bir olar,
Sənlə dərdini bölən.

***

Uca dağlar başında,
Çiçəklərə batan yar.
Məhəbbətin balına
Acı yovşan qatan yar.

***

Dağ döşündə çardaq qur,
Çardaq qur, cavan çoban.
Dərdlərlə tək qalmısan,
Uzaqdadır el-oban.

***

Uca dağın döşüylə,
Çəmənə yollanaram.
Əgər məni qaçırsan,
Başına dolanaram.

***

Uca dağdan əsən yel,
Gəlib tutdu xırmanı.
Yaylaqdakı güllərdən,
Çək mənə qəlb dərmanı.

***

Dağlardan külək qalxıb,
Ey yağış döyən yarım.
Mənimlə dərd bölməyib,
Özünü öyən yarım.

***

Zirvələrdə qanad aç,
Sən dağların quşusan.
Bir ağ günə çıxarsan,
Əgər mənə qovuşsan.

***

Dağlardakı gözəl yar,
Dağ üstündə dağ olmaz.
Qarşımdan ötüb keçmə,
Tək ağacdan bağ olmaz.

***

Bu gün dağda tufandır,
Bir köynəklə gedən yar.
Sənə soyuq dəyməsin,
Məni haldan edən yar.

***

Dağlarda çıraq yandır,
Sənə ağ neft göndərim.
Qəlbimin hakimi ol,
Qışı yaza döndərim.

***

Dağlarda çiskin yağır,
Qəm gəzir bulud adlı.
Gündüzüm gecə olub,
Sən məni unudalı.

***

Yenə dağlara qış gəlib,
Qar üstünə qar ələnir.
Yarama köz basma belə,
Qəlbimə qubar ələnir.

***

Şahdağda qar əriyir,
Sular axır çaylara.
Mənsiz bir gün dözməzdin,
İndi qatlaş aylara.

***

Şahdağda dolu yağır,
Evə dönəcəkmi yar?
Bahar bayramı gəlir,
Toyumuza çoxmu var?

***

Şahdağda bir ağ daş var,
Yolçunu yoldan saxlayır.
Yadına yarı düşəndə,
Çoban saz çalıb ağlayır.

***

Şahdağda bir şahmar var,
Orda necə dolaşım?
Anan ögey ha deyil,
Onnan niyə dalaşım?

***

Şahdağda bir qərib var,
Hamı deyir Kərəmdir.
Yarımı gözləməkdən,
Şirin canım vərəmdir.

***

Şahdağda qar əriyir,
Samura sel gələrmi?
Yarı qürbətə gedən,
Heç danışıb gülərmi?

***

Şahdağın ağ qarları,
Dərbəndin dənizinə.
Ayrılıq yeli dəyib,
Yarımın bənizinə.

***

Şahdağdan külək qalxdı,
Şeh çiləndi yallara.
Dərdindən Kərəm olub,
Düşdüm uzaq yollara.

***

Şahdağdan sellər gəldi,
Axıb dənizə getdi.
Sirrimi verdiyim yar,
Məni dözümdən etdi.

***

Şahdağın zirvəsindən
Dar dərəyə aşdı daş.
Yarım ələ öyrəşən
Bir şahin olaydı kaş.

***

İldırımlar kişnədi,
Şahdağda göy danışdı.
Yara dönük deməyin,
Sözü bir az yanlışdı.

***

Şahdağın ətəyində
Ey quzu otaran qız.
Mənə nəsib olmadın,
Görüm qalasan yalqız.

***

Baxanda göz oxşayan,
Şahdağın yazına bax.
Al ipəyə bürünmüş
Yarımın nazına bax.

***

Yeddi dağ arasında,
Şahdağın başı uca.
Cavan çoban yarını,
Görməyə tapar macal.

***

Mənə dağ da batmazdı,
Neynədi, yar elədi.
Düşmənimdən dost tutub,
Dünyanı dar elədi.

***

Yeddi dağ arxasında,
Yarın adı Gülüşan.
Elçiləri çoxalıb,
Deyin taxsınlar nişan.

***

Yeddi dağ arxasından
Sərin küləklər əsir.
Papağını yan qoyub,
Yar əda ilə gəzir.

***

Yeddi dağın arxasında,
Bir şahin var - zınqırovlu.
Sabah sizə gələcəyəm,
Bu gün yollar buz, qırovdu.

***

Bir dağ deyil, yeddi dağdır,
Yeddi dağda necə gəzim?
Atan səni mənə vermir,
Bu həsrətə necə dözüm?

***

Yeddi ildən bir il gələr,
Günləri heç tarım olmaz.
Yeddi qəflə[1] cavan gələr,
Arasında yarım olmaz.

***

Yeddi bağda yeddi gül,
Bu ki, hələ yaz deyil.

------------------------

1 qəflə - cərgə

Özünü çox öymə gəl,
Kənddə qızlar az deyil.

***

Yeddi cərgə yağışdır
Yarımın ellərində.
Hələ doyan olmayıb
Sevənin dillərindən.

***

Qəmli düşüncələrdən
Pəncərəmdə gül soldu.
Yeddi il gözlədiyim
Yar yada nəsib oldu.

***

Sən biçdiyin otlardan,
Mən gəlib dərz bağlaram.
Yeddi il yol gözləyib,
Sən gələndə ağlaram.

***

Yeddi rəngli saplardan
Xalı oldu ev dolu.
Toy edib öz evinə,
Apar məni, şad olum.

***

Ey Şalbuz dağdakı pir,
Yanına gəlməliydim.
İçimdəki dərdləri,
Səninlə bölməliydim.

***

Şalbuzdağa yağan qar,
Gün dəydikcə əriyir.

Bu gün də gəlmədi yar,
Üstümə qəm yeriyir.

***

Dağın o tayındakı,
Yolları buz bağladı.
Yarsız kənddə tək qaldım,
Buna Şalbuz ağladı.

***

Pəncərədən baxanda,
Qatundağda gün çıxır.
Ürəyim gecə-gündüz
Sənin üçün darıxır.

***

Duman kəndə qovuşdu,
Qatundağa qar düşdü.
Ey taladan əsən yel,
Ürəyimə yar düşdü.

***

Göyün üzü açılıb,
Qatundağda günəş var.
Əlində çiçək tutub,
Yarım haçan qayıdar?

***

Qatundağın döşündə,
Yer-yurdunu biləydim.
Əvvəl-axır qoynuna,
Qızılgül tək gələydim.

***

Yarudağda yağış var,
Dörd yan duman içində.

Xınalı qızlar gəlir,
Arzu, güman içində.
***
Yarudağa gün çıxar,
Zəmidə biçin yanar.
Ay ellər, qəlbimdəki
Dərdlərdən içim yanar.
***
Yarudağda gün batar,
Zirvəyə duman çökər.
Yar yardan inciyəndə,
Ayrılıq uzun çəkər.
***
Yarudağa gün dəyir,
Zirvədə qar əriyir.
Sən üzümə baxmırsan,
Qəlbimi qəm bürüyür.
***
Duman kəndə qovuşdu,
Qatundağa qar düşdü.
Ey taladan əsən yel,
Ürəyimə yar düşdü.
***
Tav otağı gözəldir,
Rəfl ərdə çini qablar.
Vəfasız yar xəncəri
Düz ürəyimə saplar.

## *SAMURA SELLƏR GƏLDİ*

Samura sellər gəldi,
Körpüsüz qalan kəndim.
Yar özgəyə qovuşub,
Sevgisiz qalan könlüm.

***

Samura selmi gəlib?
Körpünü sular basıb.
Sən getdin, ayrılığa,
Necə dözüm mən kasıb?

***

Samuru sellər basıb,
Suları balıq dolu.
Burda sahil çiçəkdir,
Təpələr kəklik yolu.

***

Samurun soyuq suyu,
Ürəyimə dolsaydı.
Dağılardımı dünya,
Mənə nəsib olsaydın?

***

Samurun sularından,
Şahinlər gəlib içər.
Mən bayatı deyəndə,
Xəyalımdan yar keçər.

***

Samurda sınıq körpü,
Taxtalardan daş axır.
Qardaşım məktub yazıb,
Gözlərimdən yaş axır.

***

Samurda sınıq körpü,
Üstündən necə keçim?
Yarı məzara gömüb,
Yaşayım kimin üçün?

***

Samurda sınıq körpü,
Taxtalardan biri yox.
Qonşunun gözəl oğlu,
Qəlbimə yatırsan çox.

***

Samurda sınıq körpü,
Taxtaları aralı.
Yardan ayrılan könlüm,
Olmazmı bəs yaralı?

***

Samurda sınıq körpü,
Üstündəki kəklikdir.
Mənə qismət olmadın,
İndi yarım təklikdir.

***

Yargunun[1] Sambur[2] çayı,
Dərmandır şirin cana.
Qız beş günlük qonaqdır,
Xərtinə dəymə, ana.

***

Haray salıb daşlara,
Çırpınır dəli Sambur.

---

1 Yargun - Həzrə kəndinin ləzgicə adı

2 Sambur - Samur çayının qədim adlarından biri

Yeddi il gözləməyə,
Allah, ver mənə səbir.

***

Yargunu sel apardı,
Sellərə qərq olan var.
Sənə necə inanım,
Hər sözündə yalan var.

***

Yargun deyib uzaqdan
Yar gələn yol oldu dar.
Sözümü kəndə yaydın,
Sənə sirr vermək olar?

***

Yargunun dar vadisi,
Yadıma düşüb yaman.
Sənsiz yaşamaq olmur,
Qoy yanında verim can.

***

Yolunu gözləyərəm,
Yarguna dönənəcən.
Mən səndən əl çəkmərəm,
Qocalıb ölənəcən.

***

Şahnabatda dolaşan,
Kəkliyin çoxudurmu?
Yar geri qayıtmayıb,
Gördüyüm yuxudurmu?

***

Samurun o üzündən,
Bu üzünə köçmüşəm.

Deməyin bəxtəvərəm,
Mən yarımdan küsmüşəm.
***
Şahnabata sel gəldi,
Sığal çəkdi bağlara.
Ağlamayım, neynəyim,
Yar gedib uzaqlara.
***
Şahnabatın selində,
Bir qızılgül ağlayır.
Yar məni qoyub gedib,
Bu dağ məni dağlayır.
***
Taxdığın boyunbağı,
Şahnabata qarışdı.
Nə vaxtdır küsüb gəzən
Yar mənimlə barışdı.
***
Şahnabatın suyuna
Qarışmağa gəlmişəm.
Mən yarımdan küsmüşəm,
Barışmağa gəlmişəm.
***
Sularında qızılgül,
Axır Şahnabat, axır.
Məni atamdan istə,
Sonra adımı çağır.

## *Könül sevən yar üçün*

Gözəldir yarın şalı,
Saçağı qırçın-qırçın.
Can qurban eləyərəm,
Könül sevən yar üçün.

***

Bağda külək qopanda,
Qapımızı döyərsən.
Sən küssən, barışaram,
Mən küssəm nə deyərsən?

***

Hər zaman çöllərdəsən,
Yolların daş-kəsəkli.
Yanımda yar istərəm,
Təzəbəy tək bəzəkli.

***

Bağçada cəh-cəh vuran
Quşun sədasına bax.
Bir həsiri olmayan
Yarın ədasına bax.

***

Mən tərəfə baxmırsan,
İş-gücün çoxmuş kimi.
Özünü çox öymə gəl,
Səndən heç yoxmuş kimi.

***

Yarın sarı köynəyi,
Yaxasında sancaq var.
Mən tərəfə çox baxma,
On beş yaşım ancaq var.

***

Sevdiyim bəhanədən,
Mənim ilə dalaşır.
Ona xəlvət dediyim
Sözlər kənddə dolaşır.

***

Söz vermə, gəldim deyə,
Həsrət məni sıxmasın.
Məni eldən soruşma,
Kənddə adım çıxmasın.

***

Budaqda beş kəklik var,
Qurban olum beşinə.
Səndən yaxşı yar tapdım,
Döymə daha döşünə.

***

Dərdini bölənin var,
Ağlayıb-gülənin var.
Mən tərəfə baxma gəl,
vində gəlinin var.

***

Qovağın kölgəsində
Yarım məni gözləyir.
Gəlib kasıb evimə,
Hər əzaba döz deyir.

***

Ey uca boylu qovaq,
Kəndimizdə bitəydin.
Uzaqlara gedən yar,
Kaş hayıma yetəydin.

***

Yol ağzında yellənir
Uca boylu qovaqlar.
Sənin kasıb evinə
Necə gəlsin qonaqlar?

***

Yol ağzında dayanma,
Səni yel tutar, oğlan.
Ögey ana əlindən,
Gəl məni qurtar, oğlan.

***

Bir gözəl qız görmüşəm,
Yaylaqda qalmalıyam.
Var-dövlətimi satıb,
O qızı almalıyam.

***

Zirvələrə qar yağdı,
Qış qapını almamış.
Mən rahatlıq bilmərəm,
O yar mənim olmamış.

***

Köynəyini düymələ,
Havada qar, ayaz var.
Sənə rast gələn gündən
Dilimdə xoş avaz var.

***

Buludlardan aşağı,
Zirvələrə yağır qar.
Ətrafına göz gəzdir,
Gör məndən gözəli var?

***

Sən atını mahmızla,
Görüm atın xamdımı?
Qulağıma söz çatır,
De, qərarın tamdımı?

***

Sevdiyim yar dağdadır,
Yollar güllə daranıb.
O ucaboylu oglan,
Mənim üçün yaranıb.

***

Mən uzaqdan-uzağa
Səndən əhval tutaram.
Eyhamı az etməsən,
Özgə bir yar tutaram.

***

Ağ sinənə göy çiçək
Düzərəm, gözəl olsun.
Bu dünyadan gedəndə,
Canımı gözəl alsın.

***

Külək göyə sovurur
Son yarpağı - sərvəti.
Dünən bağda kiminlə
Danışırdın xəlvəti?

***

Yadlar bizə gülsə də,
Dözərəm, məni qaçır.
Çəmənlər səxavətlə
Qoynunu bizə açır.

***

Yapıncına şeh qonub,
Onun rəngi solmasın.
Yer soyuqdur, uzanma,
Sənə soyuq olmasın.

***

Papağını yan qoyub,
Təkəbbürlə gedirsən.
Yadlarla deyib-gülür,
Məni peşman edirsən.

***

Ağ köynəkli oğlana
Canımı qurban edərəm.
Hamı ilə bəhsləşib,
O oğlana gedərəm.

***

Yaylaqda günlər sərin,
Çiskin yağır hər gecə.
Yarın dili şirindir,
Ondan ayrılım necə?

***

Yarın köynəyi bəyaz,
İpəkdəndir astarı.
Kənddə adımız çıxıb,
Tez elçi göndər barı.

***

Axşam bağa gəl, yarım,
Mən güllər dərənəcən.
Sözün varsa, de mənə,
El bizi görənəcən.

***

Bizim gilas bağına
Sərin rüzgar dolaydı.
Bir arzum var, həmişə
Sözümüz bir olaydı.

***

Almanı yerə tökən
Bağın küləyinə bax.
Gözü əğyarda olan
Yarın kələyinə bax.

***

Barmağıma üzük tax,
Sənə qəlbdən güvənim.
Özgələrə baxma, yar,
Varkən mən tək sevənin.

***

Yarın gözəl bacısı,
Yarıma salam apar.
De, arandan tez dönsə,
Ürəyim dinclik tapar.

***

Qaranquşlar baharda
Yuva üçün darıxar.
Yandım deyə sızlama,
Yanandan tüstü çıxar.

***

Yar xalçası toxudum,
Yaran suvar[1] gələndə.
Məktubunu oxudum,
Çaya sular gələndə.

***

Yarımçıq qalan toyun,
Çalınmamış havası.
Sənsiz bütün dünyada,
Tapılmır qəlb davası.

***

Qamışlıqda əyilib,
Düyü əkmə ayazda.
El bizi qınamasın,
Toy çaldıraq payızda.

***

Məni atan vəfasız,
Qoy özünü ovutsun.
Sabah mənim toyumdur,
Daha məni unutsun.

***

Geniş aç pəncərəni,
İçəri külək dolsun.
Ey özgəyə gedən yar,
Toyun mübarək olsun.

***

Toy evinə neçə cür,
Sevinc, büsat qarışır.
Toy edən igid oğlan
Gəlinə çox yaraşır.

***

Kəndxudanın qızını,
Neynirəm, sənin olsun.

----------------------

1 Yaran suvar - ləzgilərin bahar bayramı

Rəqs edən qonşu qızı,
Mənim gəlinim olsun.
***
Kənddə toy tükənməsin,
Zurna-qaval gözəldir.
Qəlbdəki hər əyrini,
Sevinc, fərəh düzəldir.
***
Canında dərd olana,
Qara güllə toxunmaz.
Ayrılıq olan yerdə,
Şad nəğmələr oxunmaz.
***
Qadir Allah, bu nədir,
Yayda dolu yağarmı?
Sabah toyu olan kəs,
Başqasına baxarmı?
***
Ev doludur motalla,
Bol olub təzə pendir.
Toyumuzun vaxtıdır,
Məni bir şirin dindir.
***
Gözəl oğlan, səninçün
Mən canımdan keçərəm.
Əgər çengini[1] alsan,
Yad ellərə köçərəm.

------------------------

1 çengi - gəzəyən qadın

## *Yaşıl bağdan yaşıl bağa*

Yaşıl bağdan yaşıl bağa,
Yarım gedir əlində saz.
Mənim səni sevdiyimi,
Gözəl oğlan, qəlbinə yaz.

***

Yaşıl bağda nar kolu,
Yarpağı zolaq-zolaq.
Bizi kənddə tək qoyub,
Getdi yar elə uzaq.

***

Yaşıl bağdan getməyin,
Ölümdən betər oldu.
Anan sənə qız seçib,
Zəhmətin hədər oldu.

***

Yaşıl bağda sübhəcən,
Gözümə yuxu getmir.
Beş addımlıq mənzildə,
Yarıma əlim yetmir.

***

Yaşıl bağda gəzirsən,
Halal evindən doyub.
Niyə dağa gedirsən,
Məni evdə tək qoyub?

***

Yaşıl bağda nar əkdim,
Yanında bir cüt çinar.
Daş atma meyvələrə,
Bəhərli budaq sınar.

***

Yaşıl bağda ağ köhlən,
Yüyəni əl əsdirir.
Köhlən üstə oğlanın
Telini yel əsdirir.

***

Yaşıl bağda səninçün,
Çaldım könül sazımı.
Əgər mən sənə gəlsəm,
Çəkərsənmi nazımı?

***

Yaşıl bağda mənə «yar»
Deyən dilinə qurban.
Ayrılıb gedən zaman,
Əsən əlinə qurban.

***

Yaşıl bağda əsməyə
Soyuq yellər olaydı.
Bizdən əhval tutmağa,
Şirin dillər olaydı.

***

Yaşıl bağa qonaq gəl,
Ey dağları aşan yel.
Yadına yar düşəndə,
Çəpərləri aşıb gəl.

***

Yaşıl bağa yollandım,
Şeh üstündə iz vardı.
Cığırın o üzündə,
Məndən küsən qız vardı.

***

Yaşıl bağda laçın var,
Könlünü al gül ilə.
Kənddə gözəl qız çoxdur,
Nə işin var dul ilə?

***

Yaşıl bağda çağlayan,
Bəxtəvər soyuq bulaq.
Sevgilim qürbətdədir,
Yazda gələcək qonaq.

***

Yaşıl bağın qoynunda,
Mən bir qızılgüləm, yar.
Sən ki, mənim deyilsən,
Necə deyib-gülüm, yar?

***

Yaşıl bağın qoynunda,
Bir alma ağacıyam.
Olmadı dərd bölənim,
Bir halıma acıyan.

***

Yaşıl bağda hovuz var,
Suyu yaman soyuqdur.
Mənə yaxın gəlmə, yar,
Anam bizdən duyuqdur.

***

Yaşıl bağda oturub,
Yaşıl don tikirəm, yar.
Şam kimi əriyərsən,
Bilsən nə çəkirəm, yar.

***

Yaşıl bağda ağ gilas,
Quşlara saxlamışam.
Vəfalı yardan ötrü,
Sinəmi dağlamışam.

***

Yaşıl bağın içində,
Ey zar-zar ağlayan qız.
Qəlbinin qapısını
Üzümə bağlayan qız.

***

Yaşıl bağda dolaşdım,
Ceyran ötdü yanımdan.
Ceyran kimi yarımı,
Əziz tutdum canımdan.

***

Yaşıl bağın cığırı,
Məni yaman ağlatdı.
Beş günlük səfa üçün,
Yarım məni aldatdı.

***

Yaşıl bağda nar kolu,
Yarpağında xalı var.
Bizi kənddə tək qoyub,
Qürbət elə döndü yar.

***

Yaşıl bağda gəzməyə,
Soyuq yellər olaydı.
Başına dolanmağa,
İstəkli yar olaydı.

***
Evindən yaşıl bağa,
Saz ilə gedən yarım.
Toyumuzu payıza
Saxladın nədən yarım?
***
Yaşıl bağa sübhəcən,
Bir kimsə də yovuşmaz.
Kərəmdən qalma işdir,
Sevənlər heç qovuşmaz.
***
Toy büsatı qurulub,
Göydən havazi yağır.
Bu gün gəlin köçürəm,
Son dəfə məni çağır.
***
Tav otağı gözəldir,
Rəflərdə çini qablar.
Vəfasız yar xəncəri
Düz ürəyimə saplar.
***
Allaha yalvarıram,
Yağış yağmasın deyə.
Bakıdan dönən yarım
Bəlkə qapımı döyə.

## *Şeh qonan muleylilər*

Şeh qonan muleylilər[1],
Bu səhər açılmadı.
Od tutsun ögey ana,
Halıma acımadı.

***

Bəxtəvər muleylilər,
Qucağıma dolaydı.
Nişanı yubadan yar,
Kaş evində olaydım.

***

Muleylini incə tut,
Qoy boynu üzülməsin.
Yarımın gözlərindən
İncilər süzülməsin.

***

Mul gülləri açanda,
Yaylaqda yarım gərək.
Ürəyinin sirrini
Aç, mənə söylə görək.

***

Əslinin gül əlində,
Mul güllərindən dəstə.
At belində yar gəlir,
Bəzəkli yəhər üstə.

***

Mənyazın mul[1] çiçəyi,
Tanındım Muleyli tək.

-----------------------

1 muleyli - dağ çiçəyi
1 mul - muleyli sözünün qısaldılmış forması

Dərdini necə çəkim,
Məcnunsuzam Leyli tək.
***
Şahdağın başı qardır,
Bayırda sazaqdımı?
Muleylilər görünmür,
Yaz hələ uzaqdımı?
***
Yaylağa naxış salan,
Mul çiçəkləri gözəl.
Səni yarın gözləyir,
Ləngimə, yola düzəl.
***
Paltarın gül-çiçəkli
Gilas ağacı kimi.
Elçi göndər anama,
Ürək əlacı kimi.
***
Bağda yarı gözlədim,
Gecəm səhərə döndü.
Yarımdan xəbər gəldi,
Balım zəhərə döndü.
***
Bağda yalqız qalmışam,
Gözümün nəmi getmir.
Kərəm kimi yanıram,
Əsliyə əlim yetmir.
***
Sübh şehi qurumamış,
Sən dağlara qalxma, yar,

Atam izin verməmiş,
Mən tərəfə baxma, yar.
***
Kəndə getmək istəmirəm,
Orda hava çox sərindir.
Məni yardan edən ata,
Vurduğun yara dərindir.
***
Ağaclar cərgə-cərgə,
Barsız ağac olarmı?
Məni yara vermirlər,
Dərdə əlac olarmı?
***
Bülbül kimi dil açıb,
Ey bayatı deyən yar.
Hələ də qayıtmayıb,
Ötən payız gedən yar.
***
Dənizdə gəmi üzər,
Orda malı qalan yar.
Yarı özgənin olub,
Qəmgin halı olan yar.
***
Çayın kənarı zəmi,
Ey zəmisi solan yar.
Qismətimə çıxaydı,
Bir gəmisi olan yar.
***
Yel ağzında dayanma,
Sənə soyuq dəyməsin.

Yarıma xəbər verin,
Çox özünü öyməsin.
***
Bulağa gedən qızın,
Barmaqları xınadır.
Geçikdirdin nişanı,
Ellər məni qınadı.
***
Qəlbinin qapısını,
Sən açıq qoy barı, yar.
Atam sənə qız verməz,
Gəl yaramı sarı yar.
***
Kənd hələ yuxudadır,
Sən dağlara qalxma, yar.
Özgəyə nişan taxıb,
Qəlb evimi yıxma, yar.
***
Yar qayıtmaq bilmir ki,
Dağda hava sərindir.
Məni yada verirlər,
Ürək yaram dərindir.
***
Ağaclar cərgə-cərgə,
Cicəyi var, barı yox.
Toy edib qız alanın,
Mən tək sevən yarı yox.
***
Balıqlar şivən salıb,
Keçmək olmur dəryadan.

Günümə ağla, ana,
Gedirəm tay dünyadan.

***

Öz evimdə xan idim,
Nişanlandım, qul oldum.
Toyum yarımçıq qaldı,
Solub gedən gül oldum.

***

Bulağın buz suyunu,
Ürəyi yanana ver
Dünya beş gündür, ata,
Məni sevdiyimə ver.

***

Ahım ərşə calanar,
Yada vermə, ay ata.
Sən versən, mən qaçaram,
Gülər sənə el-oba.

***

Dünyanın malı dünyada qalsın,
Ömür kimə gərək vardan ötəri?
Atamı, anamı ata bilərəm,
Dərdini aldığım yardan ötəri.

***

Qız idim, dolanırdım,
Dəryalarda gəmi tək.
İndi qaynana əlində,
Saralıram zəmi tək.

***

Bağda yarımı gördüm,
Əlindən sazı düşdü.

Nişan taxdığımız gün,
Özgəyə gözü düşdü.

***

Qəm, kədərdən uzaqlaş,
Çeşmə kimi çağla sən.
Yadlar bizi görməsin,
Pəncərəni bağla sən.

***

Sevgi deyil, ölümdür,
Dərd bölməyə kimsə yox.
Belə cavanlıq olmaz,
Barışan yox, küsən çox.

***

Zəmini böyük görüb,
Biçmədən yorulan yar.
Özgənin bir sözündən,
Bulanıb durulan yar.

***

Mahnı deyil, dərdimdir,
Ağlayıb oxuduğum.
Sənə toy sovqatımdır,
Novruza toxuduğum.

***

Otlar üstə uzanma,
Yapıncın şehə batıb.
Səndən gül ətri gəlir,
Tellərin mehə batıb.

***

Evimin önündən keç,
Əlində gül tutan yar.

Əlimə əl dəyəndə,
Dünyanı unudan yar.
***
Gözlərimin yaşını
Sən qurut, soyuq külək.
Yarıma toy çalınır,
Qaynanam gəlib kələk.
***
Güneydəki ağ kəklik,
Sinəndə zər gözəldir.
Dünyaya göz yetirdim,
Hamıdan yar gözəldir.
***
Neynirəm çiçəkləri,
Qızılgül ağacım var.
Neynirəm var-dövləti,
Sən tək sevgi tacım var.
***
Atamın limon bağları,
Əzməyin yaşıl tağları.
Məni yad elə verdilər,
Ürəyimdə qəm dağları.
***
Başındakı ağ örpək,
Qırağında zolaq var.
Necə keçim bu yoldan,
Dörd tərəfdə çaylaq var.
***
Toxuduğum corabda,
Dövrələmə güllər var.

Yarın gözəl alnında,
Məxmər kimi tellər var.
***
Külək qalxıb dağıtdı,
Saralan yarpaqları.
Payızda gedən yarım,
Baharda qayıt barı.
***
Sən dağın sinəsində,
Tənha açan bir gülsən.
Məgər dünya dağılar,
Mənim üzümə gülsən?
***
Təpədə ev ucaltdım,
Yarıma yaxın olsun.
Mən sözümdə bütövəm,
Yarım arxayın olsun.
***
Əkdiyimiz xan çinar,
Təzə pöhrələr atır.
Kənddəki cavanların,
Biri qəlbimə yatır.
***
İnişilki buğdadan,
Quşlara pay verərəm.
Həsrətinlə yanıram,
Çağırsan, hay verərəm.
***
Çiynindəki dəryazı
Ağacdan as, ay oğlan.

Sənə sazımı verim,
Sinənə bas, ay oğlan.
***
Çiynində yapıncısı,
Çinar boylu yar gəlir.
Baxmır bizim tərəfə,
Dünya mənə dar gəlir.
***
Mən səndən əl çəkmərəm,
Ürəyimi yaxsan da.
Başqasına baxmaram,
Yeddi oğul doğsan da.
***
Qışdan əlimi üzmüşəm,
İndi gümanım yayadır.
Sən xətrimə çox dəymisən,
Ümidim bircə toyadır.
***
Arana bel bağlama,
Qoyma ocağın sönsün.
Kəndə tez qayıt, yarım,
Dünya cənnətə dönsün.
***
Ağaca çıx, silkələ,
Gilas yerə tökülsün.
İstəyirəm qəlbindən
Şübhə, güman çəkilsin.
***
Pəncərədən baxanda,
Bir qumru balası var.

Mənim fəth edəcəyim
Bir ürək qalası var.
***
Pəncərədən baxanda,
Dağlara duman çökdü.
Sən məndən ayrılanda,
Göylər göz yaşı tökdü.
***
Pəncərədən baxanda,
Bir ağ göyərçin görüm.
Göyərçindən aralı
Mən necə ömür sürüm?
***
Pəncərədən baxanda,
Kotanın xışı sındı.
Ayrılığa tabım yox,
Ölüm ondan asandı.
***
Eyvanımın önünə
Sərilib məxmər döşək.
Gəlin qızlar, bu axşam.
Havazidə ötüşək.
***
Pəncərəni bağladım,
Qapımı döyəsən, yar.
Demədim kənd içində
Özünü öyəsən, y.ar
***
Mən xalça toxuyanda,
Üstünə bülbül qonar.

Yar arandan dönməsə,
Damarda qanım donar.
***
Sinəmi neştər kimi
Yarımın sözü dəldi.
Toyuma gəlməyən yar,
Yasıma özü gəldi.
***
Alagöz gəlin gəldi,
Gəlin gəldi, gül gəldi.
Boyuna qurban, oğul,
Qapımıza el gəldi.
***
Yargunun bazarında,
Alma tayı puç oldu.
Əlim sənə çatmadı,
Arzularım heç oldu.
***
Keledxürdə ev tikdim,
Gül əkdim dəstə-dəstə.
Bu dünyadan gedərdim,
Yarın qolları üstə.
***
Yadıma Bakı düşür,
Qəhərlənib doluram.
Yar daim dənizdədir,
Ayrılıqdan soluram.

## *Anama elçi göndər*

Uzaqdan baxan oğlan,
Atını geri döndər.
Əgər məni sevirsən,
Anama elçi göndər.

***

Yad eldən gələn oğlan,
Baxma bizim eyvana.
Sevirsən, elçi göndər,
Bel bağlama gümana.

***

Ey qürbətə gedən oğlan,
Söylə görüm sağsanmı?
Uzaqdan qar ələyən,
Əl çatmayan dağsanmı?

***

At çapan gözəl oğlan,
Uzaq dayan gözlərdən.
Qonşu kəndə qız vermək,
Adət deyil bizlərdə.

***

Xırmana gedən oğlan,
Bu tərəfə dönsənə.
Bizdən xoşun gəlirsə,
Bir danışıb-gülsənə.

***

Ey ağ köynəkli oğlan,
Nəçisən, haralısan?
Dərdli-dərdli danışma,
Səndəmi yaralısan?

***

Əynini qalın elə,
Dağda soyuq külək var.
Daldadan mənə baxma,
Kənddə adım hallanar.

***

Bağımıza girəndə,
Budağı qırma, oğlan.
Qonşuya nişan gəlib,
Halımı sorma, oğlan.

***

Otlardan keçdim deyə,
Çəməndə iz qalarmı?
Yadla danışdı deyə,
Yardan küsmək olarmı?

***

Göylər güruldasa da,
Yağış yağar, yer doymaz.
Könül sevən gözəldən,
Hamı doyar, yar doymaz.

***

Göylərə əl uzadıb,
Ulduz dərmək istərəm.
Çözəl oğlan, onları
Sənə vermək istərəm.

***

Cilovu kola bağla,
Atını yad sürməsin.
Sən yanıma axşam gəl,
Ellər bizi görməsin.

***
Göydə xəyal qursaq da,
Evimiz yerdir, oğlan.
Dünya iki olsa da,
Sirrimiz birdir, oğlan.
***
Papağının başında
Sarı zərinə qurban.
Yanımdan gülüb keçən
Yarın ərkinə qurban.
***
Yarın evi alçaqdır,
Damı uca qaldırsın.
Bizi istəyən çoxdur,
Deyin üzük aldırsın.
***
Qara çəpkənli[1] oğlan,
Çəpkəninə mən qurban.
Kənddə qapımı döyən,
Elçilərinə qurban.
***
Ay oğlan, fikrə getmə,
Fikirlər səni yorar.
Kənd qızlarla doludur,
Biri qismətin olar.
***
Salam olsun qohumlara,
Gətirmişik ipək, xara.

-------------------------
1 çəpkən - ləzgi milli kişi üst paltarı

Gəlinimiz alagözlü,
Bəyimizin gülsün üzü.
***
Dönüb bizim bağçaya bax,
Qızılgülü dərməyiblər.
Dərindən ah çəkmə belə,
Bizi hələ verməyiblər.
***
Buz bulağın suyunu,
İçirt təşnə olana.
Əgər məni sevirsən,
Elçi göndər anama.
***
Budaqları qırma, gəl,
Yenə bar gətirəcək.
Qəlbini sevgiyə aç,
Onu yar gətirəcək.
***
On iki sədəfli saz,
Tutmuşam, əlimdədir.
Gecə-gündüz yarımın
Söhbəti dilimdədir.
***
Mən səninçün saz çalım,
Onu çalıb çağla sən.
Kərəmdən qalan işdir,
Yar, könlümü dağla sən.
***
Sən saz çal, mən oxuyum,
Düşünməyə yox vaxtım.

Sənə qəlbimi açım,
Bəlkə gətirdi baxtım.

***

Nə çalırsan sazında?
Gözlərində qəm mələr.
Nişanı qaytarmısan,
Daha sənə kim gələr?

***

Dərdi unutdurmağa,
Saz yaxşıdır, tar yaxşıdır.
Bu dünyada hamıdan,
Könül sevən yar yaxşıdır.

***

Yaylağa yol açmışam,
Yar özünü yetirmir.
Bu dərdə neynim, qızlar,
Mənim bəxtim gətirmir.

***

Yollarını gözlədim
Uzun illər boyunca.
Sən arandan dönsəydin,
Danışardıq doyunca.

***

Əlindəki bağlama,
İçindəki şəkərmi?
Soraqsız gedən yarım,
Getdiyin yer şəhərmi?

***

Sizin gilas ağacı,
Bizim bağda bitəydi.

Aramızdan inciklik
Kaş biryolluq itəydi.
***
Dərman çiçəklərini
Səhər tezdən dərdilər.
Məni sənə verməyib,
Bir qəribə verdilər.
***
Qolundakı saata,
Yaman həsrətlə baxdın.
Ürəyimi qıran yar,
Niyə rastıma çıxdın?
***
Bu tərəfdə yağış, qar,
O tərəfdə nələr var?
Hardan bilsin quzular,
Mənim kimi mələr var?
***
Soyuq səngiyib deyən,
Bayırda gilavardır.
Bəxtim yaman gətirib,
Yar dilli-dilavərdir.
***
Danışma eyham ilə,
Görmürsənmi peşmanam?
Mən çəkdiyim zilləti
Rəva görməm düşmana.
***
Göyün ağ ulduzları,
Aramızda mənzil çox.

Yar yada nəsib olur,
Ayrılığa çarə yox.

***

Qəlbim sıxılır yaman,
Havada çiskinmi var?
Allahın incitdiyi,
Mənim tək küskünmü var?

***

Bəxtəvər yay gecəsində,
Ay ulduza yaraşandır.
Özgəsinə nişanlanan,
Yarım yaman pərişandır.

***

Ağacın budağında
Qızıl alma gözəldir.
Bir də gördün mənimsən,
İşi Allah düzəldir.

***

Evimizin önündə,
Uçdu, oynadı kəklik.
Baisin evi yansın,
Bizə od qoydu təklik.

***

Əsli, Kərəm bir bağda,
Orda külək dolaşır.
Əslinin həsrətindən,
Kərəm yanır, alışır.

***

Əsli-Kərəmin qəbri,
Yeri yandırır, qızlar.

Ögey anam köz basıb,
Məni qandırır, qızlar.
***
Ayrılığın dumanı
Sardı dağı, dərəni.
Paxıllar ayırdılar
Əsli ilə Kərəmi.
***
Əslidən də yanıqlı,
Talesiz Leyliyəm mən.
Qürbətdəki gözəl yar,
Dərdindən dəliyəm mən.
***
Qalx Əsli, eyvana çıx,
Gör əsən küləkdimi?
Ayaq səsləri gəlir,
Bu gələn fələkdimi?
***
Kəndimizdə nə işin,
Qallı, davalısan sən.
Kərəm kimi dil açıb,
Nədən havalısan sən?
***
Saz çalıb, mahnı deyib,
Məni ağladır Kərəm.
Ona yetışmək üçün.
Quzu kimi mələrəm.
***
Deyirlər yarım gəlir,
Bayram xonçası ilə.

Əsli kimi yanıram,
Aman Kərəm, su çilə.

***

Sorağı yox, izi yox,
Bəlkə bizdən küsüb yar?
Deyirlər bir həftədir,
Barmağında üzük var.

***

Bağçamızda qızılgül,
Bəslərəm bitənəcən.
Mən səndən əl çəkmərəm,
Kamıma yetənəcən.

***

Toy büsatı qurulub,
Göydən havazi yağır.
Bu gün gəlin köçürəm,
Son dəfə məni çağır.

***

Duman kəndə qovuşdu,
Qatundağa qar düşdü.
Ey taladan əsən yel,
Ürəyimə yar düşdü.

## *Qürbətdə yellər əsir*

Qürbətə gedən yarım,
Səni Allah qorusun.
Tez qayıt, evimizdə,
Toy büsatı qurulsun.
***
Qürbəti vətən sanıb,
Zirvələrdən enmə, yar.
Özgələrə inanıb,
İlqarından dönmə, yar.
***
Mən vətənsiz qəribəm,
Məni əbəs dindirmə.
Qəlbindəki sevgini,
Yar-dostlara bildirmə.
***
Dərdimi kimə deyim,
Ürəyimi qanadan?
Yar qürbətə gedibdir,
Düşən mənəm hanadan.
***
Göydəki göyərçinlər,
Dərdim göylərdən dərin.
Qürbətdəki yarımdan,
Mənə bir xəbər verin.
***
Hər güllər açılanda,
Sən qürbətə gedirsən.
Hamı sevinir, gülür,
Sən mənə dağ çəkirsən.

***
Budaqları qırma gəl,
Balta alıb əlinə.
Qəlbimə yara vurma,
Qürbət düşüb beyninə.
***
Qızılgül kollarından,
Gül bağçası saldıraq.
Sən qürbətdən dönəndə,
Toyumuzu çaldıraq.
***
Təpədə yalqız çinar,
Yel dəydikcə titrəyir.
Qürbətdəki əziz yar,
Qəlbim qəmdən əriyir.
***
Dağ döşündə tək qovaq,
Kaş halımı biləydin.
Qürbətdə can verən yar,
Kaş qəbrini görəydim.
***
Bahar açıb qoynunu,
Çiçəkli qollarıyla.
Tez dönüb gələydi yar
Qürbətin yollarıyla.
***
Şimşək vuran ağac tək,
Bağrım olub yaralı.
Gecə-gündüz yanıram,
Vətəndən ayrılalı.

***
Güllərdən dəstə tutub,
Qəlbimi ovut, oğlan.
Vətən sənsiz darıxır,
Qürbətdən qayıt, oğlan.
***
Vətəndən ayrılan yar,
Gəmiyə minib gedir.
Kəndi yadına düşüb,
İçinə sinib gedir.
***
Səninçün toxuduğum
Xalça hanada qaldı.
Vədinə xilaf çıxdın,
Məni başqası aldı.
***
Mənə düşmən batmazdı,
Neynədi, yar elədi.
Qürbəti vətən seçib,
Dünyanı dar elədi.
***
Deyirlər, bu dünyada
Hər şey gəldi-gedərdi.
Xalqa bəxt verən Allah
Bizə niyə dərd verdi?
***
Buludlara bürünüb
Göylər yenə ağlayır.
Qürbətə gedən yarım
Ürəyimi dağlayır.

***
Səhər tezdən səs salan,
Bu necə arabadır?
Necə girim içəri,
Yarsız ev xarabadır.
***
Yar evinin divarına,
Qızıl kərpic hörülüb.
Sabah bizim toyumuzdur,
Hazırlıqlar görülüb.
***
Sübh tezdən yaylağa çıx,
Məxmər yallı ağ kəhər.
Yarım yaylaqdan evə
Qayıdacaq bu səhər.
***
Bardaqları yuyanda,
Biri düşdü əlimdən.
Yenə acı söz çıxdı,
Yara acı dilimdən.
***
Dik təpəylə yeriyən,
Qonşunun naxırıdır.
Məni yada verirlər,
Dünyanın axırıdır?
***
Körpünün kənarında,
İki qızılgül bitir.
Səninçün darıxmışam,
Tez ol, özünü yetir.

***
Gecə yarıdan keçib,
Bəxtəvər aylı gecə.
Özgəyə nişanlanan
Yar buna dözsün necə?
***
Olsa əgər dünyada
Bilən qədir, yaxşıdır.
Sevməyənə getməkdən,
Soyuq qəbir yaxşıdır.
***
Bu çiçəkdən o çiçəyə,
Kəpənək tək uçan yar.
Əli əlimə dəyəndə,
Quzu kimi qaçan, yar.
***
Bir qıza vurulmuşam,
Yoluna gül səraydim.
Allaha yalvarıram,
Anası mənə verəydi.
***
Çeşmənin buz suyundan,
Bir bardaq su ver mənə.
Sənə canımı versəm,
Açarsanmı sirr mənə?
***
Cənnət deyil, bəs nədir
Yarımın olduğu yer?
Dünya beş gündür, ana,
Məni sevdiyimə ver.

***
Əl-ayaq yığışanda,
Bulağa gələrsənmi?
Qəlbinin sirlərini
Mənimlə bölərsənmi?
***
Səninçün gül əkmişəm,
Özgələr dərməsin, yar.
Biz görüşə gedəndə,
Kimsələr görməsin, yar.
***
Sap kimi üzülmüşəm,
Halıma gülmə, oğlan.
Yayı yellərə verib,
Payız olcaq gəlmə, yar.
***
Tənha bulağın suyu
Yarım kimi soyuqdur.
Yar təzə eşqə düşüb,
Qəlbim bundan duyuqdur.
***
Gecə gəlsin, ay gəlsin,
Buludlar lay-lay gəlsin.
Qışdan cana yığıldım,
Ürək açan yay gəlsin.
***
Dağlar titrəyir yenə,
Uçquna dözmək olmur.
Yar şirindir, neyləyim,
Nazından bezmək olmur.

***
Bağçamızda kol bitdi,
Budağında güllәri.
Әtirli gül qoxuyur
Yarın ipәk tellәri.
***
Eşq körpüsü ucalmaz,
Soyuq çay daşlarından,
Dәrya olar, yığılsa,
Axan göz yaşlarımdan.
***
Allaha yalvarıram,
Bitsin bu ağır çilә.
Qәlbim alışıb-yanır,
Gәl, әlinlә su çilә.
***
Dağılardımı dünya,
Mәn tәrәfә baxsaydın?
Mәnә dәrd yapışmazdı,
Әgәr mәnim olsaydın.
***
Mavi göyә nәzәr sal,
Qaranquş dәstә-dәstә.
Bizә elçi göndәrәn
Oğlanın boyu bәstә.
***
Bağçaya yetiş, yarım,
Mәn çiçәk dәrәnәcәn.
Mәnimlә barış, yarım,
El bizi görәnәcәn.

***

Pəncərəni açıq qoy,
İçəri külək dolsun.
Qoyma bizim bağçada
Əkdiyin güllər solsun.

***

Tanıdığın hər bəndə,
Səninlə dərd bölərmi?
Yardır deyə yad oğlu,
Bu qədər sevilərmi?

***

Səninlə görüşdüyüm
Yol məni qucaqladı.
Yuxuma yarım girdi,
Dodağım uçuqladı.

***

Bu beş günlük dünyada
Dərd bölənim olaydın.
El yaylaqdan dönəndə,
Sən gəlinim olaydın.

***

Yarın gilas ağacı,
Bağçamı sərin etdi.
Sözündə durmayan yar,
Dərdimi dərin etdi.

***

Məni gec-gec arama,
Görənlər mat qalmasın.
Mənə qəm yükü vermə,
Qəlbimdə çat olmasın.

***

Yarım uzaqlardadır,
Yolunu dağ bağlayır.
Məni bəxtəvər sanma,
İçimdə dərd çağlayır.

***

Bulaqdan su içmə, yar,
Onun suyu soyuqdur.
Qəlbimdən xəbər tutsan,
Dərddən oyuq-oyuqdur.

***

Ağacdakı almanı,
Dərmədən yemək olmaz.
Qəlbindəki hər şeyi
Dilə gətirmək olmaz.

***

İldırımın odundan,
Təpədə yandı xırman.
Özgələrə xoşbəxtlik,
Bizə qəm oldu dərman.

***

Yar bağı başdan-başa,
Gül açıb, laləzardır.
Sanma ki, bəxtəvərəm,
İçimdə ahuzardır.

***

Dünya dostdur binədən
Bəxtiyar olanlara.
Düşmən deyil, bəs nədir,
Qəlbi qırılanlara?

***

Neçə ildir səhər-axşam,
Yarın adı dilimdədir.
Gülə-gülə can verərəm,
Bilsəm, əli əlimdədir.

***

Sən necə də gözəlsən,
Ey cənnətdən gələn quş.
Mənim könlümü yıxma,
Dərdlərə gələrsən tuş.

***

Yaranmışıq səninlə,
İkimiz bir almadan.
Dünyadan necə gedim,
Yar, könlünü almadan?

***

Dəryaz tutub sübh tezdən,
Tər otları biçərsən.
Gülüm, nazını çəksəm,
Təqsirimdən keçərsən.

***

Bu tərəf dağ, o tərəf dağ,
Arada bir çiçəkli bağ.
Sən mənə nəsib olmasan,
Yetər mənə pambıqla ağ.

***

Bir qərib gəlib keçdi,
Göydə bulud tək doldum.
Belə qəmli baxma, gəl,
Bəlkə qismətin oldum.

***
Göydən təyyarə gedir,
İçində mən olaydım.
Ağ üzlü nazlı sona,
Evimdə sən olaydın.
***
Kaş həmişə dünyada
Günəşli yay olaydı.
Qonşunun gözəl oğlu,
Ürəyimi alaydı.
***
Dartılanda süzülən,
Demə ki, cunayam mən.
Yadlara sirr verməyən,
Gördüyün sonayam mən.
***
Geyib zər libasını,
Gizlətmir ədasını.
Dodaqları xam qaymaq,
Olarmı ondan doymaq?
***
Atın qızıl yəhəri,
Başdan-başa zərdir, yar.
Məni sənə vermirlər,
Dörd tərəfdə şərdir, yar.
***
Toyuna toxuduğum
Xalı hanada qaldı.
Sən özgəyə yar oldun,
Əlim xınada qaldı.

***
Bu gün yarın toyudur,
Nələr oldu gör, ana.
Burda ürəyim partlar,
Məni yada ver, ana.
***
Yağış yağar, yer doymaz,
Torpaq cadar-cadardır.
Toyuna hazırlaşan
Yarın əli qabardır.
***
Tav**1** evi işıqlanıb,
Yerdəki gəbədəndir.
Mənə qalan sənsən, yar,
Hamı gəlib-gedəndir.
***
Gözlərimin içi daim
Nəmdir ana, nəmdir ana.
Kasıb ev düşüb boynuma,
Qəmdir ana, qəmdir ana.
***
Bircə dəfə ay ana,
Durdummu de üzünə?
Məni sevdiyimə ver,
Cənnət qazan özünə.
***
Eyvandan boylananda,
Elə bildim yazdı qız.

-------------------------
1 tav - qonaq otağı

Səni kimə verirlər,
Ey yargunlu nazlı qız?
***
Yargunun bağlarına,
Qızılgüllər ələnib.
Sənə yazdığım məktub,
Göz yaşına bələnib.
***
Ey səhər doğan günəş,
Sənin nurundan olmaz.
Beş övladı olsa da,
Gözlərim yardan doymaz.
***
Səhərlər doğan günəş,
Günortadan tez batmaz.
Yeddi il gözlədiyim
Məni yadlara satmaz.
***
Səhərlər doğan günəş,
Giçəkli güneyə qalx.
Könül sevən gözəl yar,
Bir bizim eyvana bax.
***
Səhərlər doğan günəş,
Gündüzlər gərəyimdi.
Sevgilimin şəklini,
Saxlayan ürəyimdi.
***
Səhərlər doğan günəş,
Pəncərəmə dolarmı?

Kim[1] kəndin ürəyidir,
Kimsiz də kənd olarmı?
***
Günəşsənmi bu qalxan,
Qar əriyən güneydən?
Yetmirsə sənə əlim,
Bu dünyanı neynirəm?
***
Axşam oldu, gün batdı,
Hələ bulaqdayam , yar.
Yavaş yapış qolumdan,
Əlinin izi qalar.
***
Günəşsənmi, aysanmı,
Yoxsa göydəki salah?
İnsan bu qədər gözəl
Olarmı, aman Allah?
***
Yayın cırhacırında
Palasa düzlərində,
Məktubunu oxudum,
Yaş axdı gözlərimdən.
***
Dam üstündə gül bitər,
Belə gülü yaz verməz.
Qürrələnib gəzən yar,
Atam sənə qız verməz.

---------------------------
1 kim - kənd ağsaqqallarının toplaşıb məsləhətləşdiyi yer

## *Yüksəklikdə beş eyvan*

Yüksəklikdə beş eyvan,
Sərin küləklə dolsun.
Bu dünyanın beş günü,
Vəfalı yarla olsun.

***

Yüksəklikdə beş eyvan,
Nə yaman sərindir, yar.
Necə gedim evimə,
Söhbətin şirindir, yar.

***

Yüksəklikdə beş eyvan,
Sütunları tarımdır.
Eyvana kölgə düşdü,
Elə bildim yarımdır.

***

Yüksəklikdə beş eyvan,
Zirvədəki dağ kimi.
Mənim sevdiyim gözəl,
Parlayan çıraq kimi.

***

Eyvana söykənmə, yar,
Qoy məhəccər sınmasın.
Bizim tərəfə baxma,
Adaxlın qısqanmasın.

***

Şam qoyma beş eyvana,
Onsuz da işıq salmaz.
Bir əl boyda məktubdan,
Qəlbə təsəlli olmaz.

***
İçini dərd ovmasa,
Ağlaya bilərsənmi?
Sirrimi sənə versəm,
Saxlaya bilərsənmi?
***
Eyvanın qabağında,
Əkdiyim üzüm soldu.
Ögey ananın bizə
Etdiyi zülüm oldu.
***
Yarın uca eyvanında
Bülbül ötür, yenə yazdır.
Sənə necə könül verim,
Söz-sov ilə aran sazdır.
***
Düz vadidən qərib keçər,
Bəndlər deyər acı-acı.
Düz eyvandan yar boylanar,
Dərdlərimin əlacı.
***
Damdan dama açılan
Beş addımlıq yol nədir?
Evinə gəlin köçüm,
Ürəyim səninlədir.
***
Dam üstündə yenə dam,
Dörd tərəfdə çincilim.
Var-dövləti neynirik,
Yetər bizə bir kilim.

***

Bəndlərinə aşıqəm mən,
Havazi de ağır-ağır.
Bu axşam gəlin köçürəm,
Gəl son dəfə məni çağır.

***

Qızılgülü çöldə ək,
Qoy bağçan dar olmasın.
Sevmirsən, bu başdan de,
Sonra gözüm dolmasın.

***

Qızılgülü dərərəm,
Əlim qana batsa da.
Yarımı unutmaram,
Qəlbimi qanatsa da.

***

Qızılgülü dərəndə,
Zəhmətim bada getdi.
Anam bizi ayırdı,
Sevdiyim yada getdi.

***

Qızılgül suyu dəyən,
Sinidəki ağ qənddir.
Kefimdən ağlamıram,
Məni ağladan dərddir.

***

Mən qızılgül ağacıyam,
Gül açıb bar verməyən.
Mən talesiz bir qızam,
Bicə xoş gün görməyən.

***
Bülbülün şirin səsi
Məni erkən oyatdı.
Qızılgülə bənd oldum,
Əlimə tikan batdı.
***
Bağçadakı güllərdən,
Bir gözəl dəstə bağla.
Verdiyim ağ yaylığı,
Məndən yadigar saxla.
***
Bağdakı qızılgüllər,
Barıdan uca oldu.
Bizi ayıran ata,
Ürəyimə qəm doldu.
***
Çit almağa yollandın,
Aldığın ipək oldu.
Dilin sözə baxmadı,
Ağrıyan ürək oldu.
***
Biz yaylağa gedəndə,
Kükrədi çayın suyu.
Allahım, nədən mənə,
Qəm verdin ömür boyu?
***
Dəyirman daşına bax,
Üstündə suyu yoxdur.
Gözümdən sellər axır,
Dibində quyu yoxdur.

***

Bu dünyaya gün düşdü,
Mavi göydəki taxtdan.
Bizə nəsib olmadı
Hamıya düşən baxtdan.

***

Ağacın budağını,
Əy, yeyim meyvəsini.
Tez mənə elçi göndər,
Neynirəm özgəsini?

***

Ağacda bir yuva var,
Quş tək ora qonaydım.
Bu dünyada tək sənin
Həsrətinlə yanaydım.

***

Dünya gözəl dünyadır,
Eşqdən yananlara.
Dünya tək düşmən hanı,
Ürəyi sınanlara.

***

Yenə gəldi nazlı payız,
Sarı yarpaq tökə-tökə.
Yollarını gözləyirəm,
Həsrətini çəkə-çəkə.

***

Yenə gəldi qəmli payız,
Çəmənləri saraltmağa.
Küsü ilə, ayrılıqla
Qanımızı qaraltmağa.

***
Yenə gəldi qızıl payız,
Xəzəl oldu yerin üstü.
Bəs deyirdin, sən Kərəmsən,
Hanı səndən çıxan tüstü?
***
Yenə gəldi dərdli payız,
Heç bilmirəm haradayam.
Hamı öz vətənindədir,
Tək mən qərib diyardayam.
***
Bəxtəvər aydın gecə,
Göydə bir aypara var.
Sən qürbətə gedəndən,
Sinəmdə bir yara var.
***
Bəxtəvər göyərçinlər,
Uçmağa qanad gəz.ər
Hamı sevgi, məhəbbət,
Mənim yarım ad gəzər.
***
Bəxtəvər bahar çağı,
Çöldə rüzgar dolaşsın.
Mən yanıram dərdindən,
Qoy yarım da alışsın.
***
Çiçəklərə qərq olub,
Yenə bəxtəvər çəmən.
Qaytarma elçiləri,
Sevgi olmaz ki, həmən.

***

Qış bizi cana yığdı,
Bəxtəvər yay gələydi.
Hamı kimi mənim də
Üzümə bəxt güləydi.

***

Üzü on beş günlük qəmər,
Nazik beldə qızıl kəmər.
Asta-asta qədəm qoyub,
Hara gedir yar bəxtəvər?

***

Sən dünyadan köçəndən,
Yox ömrümün səfası.
Neynəsəm də açılmır,
Ürəyimin havası.

***

Mənimçün bir qəbir qaz,
Torpağı çınqıl olsun.
Üstünə su yerinə
Gözümün yaşı dolsun.

***

Kəndin halı ala-bula,
Orda ağlaşma, şivən.
Qəbirlərə baxanda,
İçində neçə cavan.

***

Yar gəlib məhlədədir,
Kəhər atı kişnəyir.
Bizi ayırma, ana,
Qəlbim yanar təşnədir.

***

Bir gündə necə düşdük
İki bacı bir dərdə.
Bizi bir qəbrə qoyun,
Gün dəyən güney yerdə.

***

Bülbül kimi dil açıb,
Cəhcəh vurur yar yenə.
Səni mənə vermirlər,
Dünya olub dar mənə.

***

Alışan ürəyimi
Küləklə sərin elə.
Sənə nəsib olmasam,
Qəbrimi dərin elə.

***

Göy üzü tutulanda,
Səmada ay tapılmaz.
Yarın əvəzi olar,
Qardaşa tay tapılmaz.

***

Gözümdən axan yaşlar,
Yığılsa, dəniz olar.
Mənə nəsib olmasan,
Dünyanın rəngi solar.

***

Dağ üstündə dağ olmaz,
Tək ağacdan bağ olmaz.
Qardaşın söz yarası,
Ölənəcən sağalmaz.

***

Bağımızda yuva var,
Göyərçin gəlib qonur.
Qardaş yada düşəndə,
Həyat gözümdə donur.

***

Bağında əkdiyin badam,
Böyüyüb, yan verir, qardaş.
Nə olar, vətənə qayıt,
Dizində can verim, qardaş.

***

Qəmli-qəmli oxuyur,
Qərib eldə bir qərib.
Qardaşım qürbətdədir,
Məni öldürür bu dərd.

***

Uzaqdan qayıt, qardaş,
Geyib əsgər şineli.
Sən evinə dönməsən,
Bacın olacaq dəli.

***

Dənizin sularında
Qağayılar qaynayır.
Çengiyə qoşulan yar,
Ürəyimlə oynayır.

***

O tapdığın nə yard,ır
Qaraçı kimi gəzər.
Mən ki, ondan gözələm,
Hürü-pəriyə bənzər.

***

Çiçək bayramı[1] gəlib,
Danışaq bəndlər ilə.
Yarı çengi aldadıb,
Neçə cür fəndlər ilə.

***

Bağda gilas ağacı,
Evimə kölgə salir.
Yar Bakıya qayıdır,
Qəlbimi kədər alır.

***

Şah dağından ələnən,
Yellər məni aldadır.
Söylə, Bakı şəhəri,
Mənim yarım hardadır?

***

Yadıma Bakı düşür,
Qəhərlənib doluram.
Yar daim dənizdədir,
Ayrılıqdan soluram.

***

Bakı yolunda çinar,
Arxasında dəniz var.
Yarımı gözləməkdən
Ürəyim olub qübar.

***

Dərbəndin dənizində,
Ördəklər sonalanır.

---------------------

1 çiçək bayramı - ləzgilərin qədim el bayramı

Dərdimi kimə deyim,
Yar qürbətə yollanır.

***

Axtının bazarından,
Saçaqlı örpək aldım.
Sevdiyim yada gedir,
Mən qəmlərlə tək qaldım.

***

Pəncərədən baxanda,
Yol gedirdi bir sarban.
Çinar ağacı kimi,
Şümal buyuna qurban.

***

Bağçamızda qızılgül,
Bəslərəm bitənəcən.
Mən səndən əl çəkmərəm,
Kamıma yetənəcən.

***

Allaha yalvarıram,
Yağış yağmasın deyə.
Bakıdan dönən yarım
Bəlkə qapımı döyə.

# Баядрин геле аваз



**КцIарай дагъларин акунар**



**Меле**



**ЧIехи Муругъ хуьре**



**Уьнуьгъ дереда**



**Яргун (КцIар)**





**Зарханум Бедирхановади (ГадацIийихуьр) вичин хтулдиз баядар кIанарзава.**

**Баядрал гзаф рикI алай Дилшад Сейфуллагьан руш (Яргун)**









**Зи диде Куьбра** **Лезги мехъер**





**(1958-йис)**





**Гамарин устад Зибейда Шейдаева** **Зи баде Гъуланбиги**





Манкъулидхуьруьн-

Аварандай тир Шагьнигар баде

вийрин мецера къедалди Эминат Малатиловадин баядар ама

Хьрак

Чпирви Мирземегьамед халу

Шаир Шакир Наврузбегова

Дагъустандин сейли алим, филологиядин илимрин





**баядар лугьузва**

**ГадацIийихуьряй тир Гуьлдесте бадедини Эзине бадеди баядрал илигнава**

**доктор Фаида Гъаниева**

**Яламада Магьият бадедин кьилив**







**ТIигьиржалда**



**Аюб ва Истемаз Жаруллаевар ЧIехи Муругъин фолклордал рикI алайбур я**



**ГадацIийихуьре баядрин меле**



**Камарван (Къебеле)**





**ЭчIехуьряй тир Аният Мамедова**



**Гуьлжейран бадедин кьилив (Аваран)**



**Исмаиллы райондин Смугъулрин хуьруьн эгьли Ширван баде**



**Зинданмуругъ (КцIар)**



**Зинданмуругъви муаллимар - шаир Лезги Бегьлул ва хуьруьн мектебдин директор Судья Манчаров лезги фольклор кIватIна жегьил несилдив агакьарзавайбурукай я.**



**ТIигьир (КцIар)**



**90 йиса авай Абдулсин Эсетова «Самур» газетдин кIвалахдарриз лезги мах ахъайзава**



**Пирал хуьруьн рехибур Темирханни Гьалият Агъамирзеевар**



**Яргунви къелемэгьли Мирзали Руьстемован кIвале**



**Туьркия Республикадин Балыкесир вилаятдин Кирне хуьр**



**Баядар хуралай лугьудай Муминат Усманова (Аваран)**



**Уьлкве Исаева (ЭчIехуьр)**



**Къебеле райондин агъсакъал Шагьисмаил Исмаилова вичин кайвани Гуьлейфедихъ галаз баядрал илигнава.**



Ясаб (КцIар)





106 йисуз уьмуьр
Гъалай яргунви
Абдулкерим Керимов



Эбинат баде
(ГадацIиййихуьр)



Седеф баде
(ТIигьиржал)

**Кьилер**

Халкьдин руьгьдин ивирар.....5
Чи дегьнейрин кьуд цIарар.....7
Дидедин дафтардай.....16
Чи руьгь хуьзвай бадеяр......20
Селей лугъуз атуй эллер.....22
Саяд Перидин агь.....26
Зибейдадин гиширар.....28
Мейрама куькIуьрай экв.....30
Назифатан гьарай.....32
Ханумагъадин тIал.....36
Седефан сузаяр.....38
Вуч хъсан тир руш тир бере.....40
Я Уьнуьгърин масан дере.....41
Шегьребанидин манияр.....44
Хьилерин баде.....47
ЧIалан меле.....52
Хуьруьн викIегьди.....55
Са бухча баядар.....58
Булахдиз яд хтана.....60
ГадацIхуьруьн рушариз кьий.....63
Дидедин веси.....64
Бадейрин кьула.....66
Бедирнисе.....68
Сусанханум.....70
ЧIални велед хьиз верцIи я......72
Гуьзелан иер чIалар.....74
Магьиятан йикъарган.....76
Аваранрин элкъвей рекьер.....80
Сечмедин некIедин сас.....81
Гуьлжейранан кула.....84

Шагьнигаран «чан»…....................................................87
Саимата акьур ккIал...................................................89
Кьулан вацIуз сел атана ..............................................91
Тевризан мярекатар ....................................................93
Ракъуятан верцIи ван...................................................95
ЧIал аманат яз вугана ..................................................97
Баядрин кIентI ............................................................99
Какванвай юкь дуьз хъхьана.......................................101
Сабур гудай баядар ...................................................103
Баядрин сел алахьна.................................................. 105
Ниметан чIехи мурад................................................. 107
ЧIалар чразвай хьар...................................................109
Ксарин манияр............................................................111
Мирземегьамедан манияр...........................................113
Халудин аманат…........................................................115
Физеммедан тIал ..........................................................117
Гафариз рангар ядай кас..............................................118
Кьуьзуь лекь..................................................................119
Лезги Баба......................................................................121
Баядрал рикI алай кас ....................................................123
Идрисан вилин накъвар.................................................125
Лезги руьгь хуьзвайди................................................. 127
Сад за лугьун, сад вуна лагь ...........................................130
Цавай физвай вили лифер............................................134
РикIелай тефир легьзеяр. ..............................................137
Баядар.............................................................................139
Чи баядрин кьилин образ...............................................141
Кьакьан дагълар мад кьакьан хьуй ...............................142
Дагъларилай къарагъай гар ...........................................146
Шагь дагълара хар къвазава...........................................149
Ирид дагъда гьикI къекъведа..........................................152
Шалбуз дагъдин хураллай пIир .......................................155

Гатун дагъда рагъ акьуна .......... 156
Яру дагъдал яр акьалтна .......... 157
Кьулан вацIал кьуларин муьгъ .......... 158
Шагьнабатдин сел атана .......... 160
Перизада, гьай гуьзел яр .......... 162
Халкьаринди вуч гафар я? .......... 164
Хуьре мехъер аваз хьурай .......... 171
Къацу багъдай къацу багъдиз .......... 174
Чиг ацукьай мулейлияр .......... 179
Зун бубади ваз тагайтIа .......... 181
Заз вун хьтин яр авайд я .......... 184
Зун дакIардай килигайла .......... 192
Я гада, вун нин гада я? .......... 194
Чун тагана амазама .......... 198
Чуьнгуьрдилай ван алахьиз .......... 201
Яр арандиз акъатнава .......... 205
Чаравилиз авач чара .......... 207
Эсли, Керем кьвед са багъда .......... 210
Къариблухдин гарар юзаз .......... 214
ТакIандакай яр жедани? .......... 219
Булахдин яд къайиди я .......... 222
КIани ярди зун жузуртIа .......... 224
Ватандивай къакъатай яр .......... 228
Зун валайни кайиди я .......... 230
Я кIан хьана, тахьай къелем .......... 232
Зи мурадар кIармир вуна .......... 236
Нагъв алахьай вилериз кьий .......... 238
Нуьвед ич хьиз къекъифнава .......... 241
Несиб тахьай яр акурла .......... 242
Иер вилер авай суна .......... 245
Зун дидеди ваз гузавач .......... 247
Яргунарин Самбурдин вацI .......... 250
Агъадикай экъечIай рагъ .......... 252

Къаварилай къаваралди ........................................ 255
Кьакьан синел вад айванар ........................................ 256
Силесардал хур вегьемир ........................................ 257
Зун къизилгуьлд тар я вахар ........................................ 259
Я сад Аллагь, гьамд хьурай ваз. ........................................ 262
Мад атана бахтавар зул ........................................ 265
Заз сурара са сур атIутI ........................................ 268
Стхад метIел чан ганайтIа ........................................ 270
Вун аскердай хкведалди ........................................ 272
Яр ченгиди къакъуднава ........................................ 274
Алпандин цIу ягъурай вун ........................................ 276
Веледрин дерт чIугвадалди ........................................ 279
Гьар чкадай са суракь ........................................ 281
Бакуд рекьел кьакьан чинар ........................................ 283
Дербенарин дерин гьуьле ........................................ 284
Ахцегьарин сал арада ........................................ 285
Къуба пата цав рахана ........................................ 286
Чан Куьредиз акъатай яр ........................................ 287
Муьшкуьр пата цаву ванда ........................................ 288
За Ширванда никIер цана ........................................ 289
Шеки пата илигайд я ........................................ 290
Хьилер кIама са тар ава ........................................ 291
Зи рикI алай Ясабрин кIам ........................................ 292
Жибиндавай Чпирдин ич ........................................ 293
ХупI иер я Лечет багълар ........................................ 294
Кьасумхуьре базар ава ........................................ 295
Лацаринди яйлахар я ........................................ 296
Паласадиз шив ахъаймир ........................................ 298
Гавдан деред яхадаллай ........................................ 299
Силибирдин махпур дере ........................................ 300
Mənim şair xalqım ........................................ 301
Redaktordan. ........................................ 303

Mьəllif sцzь..............................................................305
Bayatılar..................................................................311
Uca dağlar başında.....................................................312
Samura sellər gəldi....................................................321
Kцnы sevən yar ьзьn...................................................325
Yaşıl bağdan yaşıl bağa..............................................333
Şeh qonan muleylilər..................................................338
Anama elзi gцndər.....................................................349
Qьrbətdə yellər əsir....................................................358
Yьksəklikdə beş eyvan................................................372
Баядрин геле аваз.......................................................383
Кьилер.......................................................................395